RESPUBLİKA 15 may 2019-cu il

# DAŞDAN YARANMIŞ POEZİYA



Yazılı ədəbiyyatımızda Yer, onun daxili quruluşu, təbii sərvətləri, faydalı qazıntıları, nefti, qazı haqqında çox yazılıb. Nizami Gəncəvidən başlamış müasir dövrün yazıçı və şairləri təbiəti, insanı, həyatı öz əsərlərində tərənnüm etmişlər. Bütün bunlarla yanaşı, onlar insanı duyğulandıran, düşündürən həyati mövzulardan, sevgidən, kədərdən də yazıblar.

Belə əsərlər insanlarda həyata maraq, yaşamaq və yaratmaq eşqi aşılayıb. Musa Yaqubun şeir dünyasında bu mövzular daha fərqli düşüncə və duyğularla işlənib. Axar sularla danışır Musa Yaqub, bənövşəni vəsf edir, daşı dilləndirir, onun qara taleyinə kədər notlarında sanki qəmli bir havacat oxuyur Musa Yaqub.

*Leyləklərin çöp yuvası boş qalıb,*
*Bahar gedib, payız gəlib, qış qalıb.*
*Göy çəməndə ocaq yanıb, daş qalıb,*
*Bu dünyanın qara daşı göyərməz.*

Zamanın keçdiyini, hər şeyin ötəri olduğunu desə də, yenə qalanın daş olduğunu vurğulayır. Bunun sirri çoxlarına məlum deyil. Azərbaycanın gözəl guşələri çoxdur, onların sırasında İsmayıllının təbiəti, dağları, meşələri, çayları və canlı aləmi həmişə insanları valeh etmişdir. Burada toponimlər, yer adları təbiətlərinə uyğun olaraq müəyyən edilmişdir. **Göyçay çayının** mənbəyində zəy yatağı çox olduğundan sel gəlib daşqın olsa belə, suyu daim təmiz və gömgöy olur. Dağlardan dərələrə axıb tökülən gur sulu bir neçə çay **Çayqovuşan kəndində** qovuşur və Göyçay çayı yaranır. İstisu kəndinin yaxınlığında yerin dərin qatlarından tektonik qırılmalarla üzə çıxan kükürdlü istisu bulaqları vardır. **Qalacıq kəndinin** ətrafı sıldırım, keçilməz meşəli dağlarla təbii qala yaratmışdır. Sumağallı kəndində Çayqovuşandan aşağıda sular düzənliyə çıxır və selin gətirdiyi kol-kos mayallaq aşan kimi axır. Nəhayət, **Buynuz kəndi...** Qalagəh tərəfdən baxanda kəndin üstündəki dağlar kəl buynuzunu xatırladır.

Musa Yaqub İsmayıllı rayonunun, gözəl mənzərəli, Göyçay dərəsində adıçəkilən kəndlərin əhatəsində yerləşən Buynuz kəndində, Azərbaycanda yeganə məkan olan, geoloji abidə sayılan Buynuz intruzivinin çıxışı olan yerdə dünyaya göz açıb. Dünyanı bu məkandan dərk etməyə başlayıb, ilk sönməyən ocağını da orada qalayıb.

*Nə bu ocaq közərəsi, sönəsi,*
*Nə o günlər bir də geri dönəsi...*
*Qəm eləmə, könlümün bir dənəsi,*
*Bu dünyanın qara daşı göyərməz.*

Təbiətdə daş-qaya çox yerlərdə var, ancaq Buynuzda olan qayalar Yerin ürəyi ilə, nüvəsi ilə bağlıdır. Yerin təkindən çatlarla səthə doğru hərəkət edən maqma yerin üzərinə yaxın dərinlikdə tədricən soyuyur və intruziv daş qayalar yaradır. Sirlərini, elə özünü də gizlədir bu daş qayalar.

Musa Yaqub xeyli illər öncə İsmayıllıda "Zəhmətkeş" rayon qəzetinin redaktoru idi və dədə-baba yurdu Buynuz kəndində özünə ayrıca ev tikməyə başlamışdı. Evini kəndin yuxarı başında, qayanın ətəyində tikdi. Çoxumuz təəccübləndik, axı kəndin daha yaxşı torpaqları vardı. Göyçay çayının sahilində daha mənzərəli yerdə yurd salmaq olardı. Mən indi bilirəm ki, Musa müəllimi ora çəkən "Bu dünyanın göyərməyən qara daşları imiş".

*O gülyanaq bənddir bir xoş baxışa*
*Körpə budaq əl açıbdır yağışa.*
*Min baharın hərarəti yığışa*
*Bu dünyanın qara daşı göyərməz.*

Bəzən danışan insanı belə anlamaq olmur. Daşın dərdini anlamaq, bunu ancaq təbiəti duyan, Yerin dərdini öz dərdinə qatan insan bilərmiş. Daş insanların həmişə gərəyinə gəlmişdir. İnsan özünü dərk edəndə, qoruyanda əlinə daş almış, dərdini daşın sinəsinə yazmışdır. Daşın insan həyatında rolu çox böyükdür. İslama inanc yerimizin mərkəzində, Məkkədə, Kəbə evində də Qara daş dayanır və insan onun başına dolanır, dərdini deyir, diləyinin, arzusunun həyata keçməsini istəyir. Bəzən daşdan yoğrulub, deyirlər zəhmətkeş insana. Daş və insan. Musa Yaqubun poeziyasında obrazlaşmış daş.

*Ot göyərdib o cığırım, o izim,*
*Tufanlanıb çalxalanmaz dənizim.*
*Daha məndən sevgi umma, əzizim,*
*Bu dünyanın qara daşı göyərməz.*

İnsanın bir parçası həmişə daş olmuşdur, insan çox vaxt özünü daşa bənzətmişdir. Daş bizim varlığımızda özünə yer etmişdir: vətəndaş, qardaş, yoldaş, sirdaş, ürəyi daş, qurudu daşa döndü, daş heykəllər, daş abidələr, məzarın başında daş. İnsan həyatının əvvəlində və sonunda, qəbirinin başında daş. Bunun sirri böyükdür. Hələ İslamdan əvvəl Şumerlərdə, Bilqamıs dastanında, Dədə Qorqudda daşdan, dağdan kömək umulmuş, daş kurqanlar tikilmiş, daş işarələrlə hərəkət istiqamətləri seçilmişdir. İnsan duyğusunu daşda gizlətmiş, ruhunu daşa bağlamışdır. Xoşlanmayan insanın dalınca daş atılmış, ölənin yerinə daş qoyulmuş, evdəki ruhu ona sığınmış və evdən çıxarılmışdır. Qəbirə başdaşı qoyulması da təsadüfi deyil, bu, insan ruhunun cisminə yaxın olan daşda saxlanması üçündür.

İnsan insanlığına əlinə daş alaraq başlamış, ruzusunu daşla əldə etmiş, daş mağaralara sığınmış, daşla özünü qorumuşdur. Hələ daş alətlər, çaxmaq daşı, dəyirman daşı, bəzək daşı və bir qədər əvvəldə qeyd etdiyimiz kimi, tufanlanmaz, çalxalanmaz bir dəniz - başdaşı...

*Araz boyu çox mənalar sezmişəm,*
*Elə bilmə əllərimi üzmüşəm.*
*Ürəyimə daş bağlayıb dözmüşəm,*
*Bu dünyanın qara daşı göyərməz...*

1981-ci ildə İsmayıllıda zəlzələ oldu. Bu region əvvəlki geoloji dövrlərdə də aktiv olmuşdur. 1902-ci il Şamaxı zəlzələsi zamanı burada da dağıntı olmuşdur. Musa müəllim zəlzələyə dair də şeir yazmışdır.

*Zəlzələdən qaçmaq olmur, qaranquştək uçmaq olmur...* Musa müəllim, bilirik ki, ruhunuz yurdunuza bağlıdır, duyğularınızı daşa yazıb ürəyinizə bağlamısınız. Bu dünyanın qara daşı göyərməz... deyib, üç nöqtə qoymusunuz...

Amma nə yaxşı ki, bu dünyadan da əlinizi üzməmiş, ümidinizi itirməmisiniz.

Göyərəcək, Musa müəllim, əsrlər keçəcək, başqa daşlar göyərməsə də, Buynuzun qara daşları göyərəcək...

**Hümbət VƏLİYEV,**
**Geologiya-mineralogiya elmləri doktoru, professor.**